Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanının 3-cü bəndinin 6-cı abzasının icrası məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikası Baş nazirinin səlahiyyətlərini icra edən A.RASİZADƏ

Bakı şəhəri, 22 oktyabr 1998-ci il
№ 216

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1998-ci il 22 oktyabr tarixli 216 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında

Ə S A S N A M Ə

1. ÜMUMİ MÜDDƏALAR[1]

1.1. "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə" (bundan sonra "Əsasnamə") "Azərbaycan Respublikasının Su Məcəlləsi"nə və "Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli fərmanına əsasən hazırlanmışdır.

1.2. Azərbaycan Respublikasının istirahət və idman üçün yararlı olan su obyektlərinə aşağıdakılar aid edilir:

yeraltı sulu horizont, hövzə və yataqlardan süni yolla yer üzərinə çıxarılan içməli, mineral və termal su qaynaqları;

təbii içməli, mineral və termal su qaynaqları (bulaqlar);

yerüstü su axınları və su tutarları;

buzlaqlar və qar örtükləri;

Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsi.

1.3. Bu Əsasnamə ümumi istifadədə olan, habelə bütövlükdə və yaxud qismən ayrıca istifadəyə verilmiş su obyektlərindən istirahət və idman üçün istifadə qaydalarını müəyyənləşdirir.

1.3-1. Şuşa şəhərinin ərazisində su obyektlərindən istirahət və idman üçün istifadə "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.[2]

1.4. Əsasnamə su obyektlərindən istirahət və idman üçün istifadə edən bütün fiziki və hüquqi şəxslərə aiddir.

1.5. Azərbaycan Respublikasının hər bir vətəndaşı fərdi istirahət və idman məqsədi ilə bu Əsasnamənin 1.2 bəndində adı çəkilən su obyektlərindən istifadə hüququna malikdir.

Bu zaman o:

müvafiq şəxsi təhlükəsizlik qaydalarına riayət etməli;

su obyektləri və onların sahillərini məişət və digər tullantılarla çirkləndirməməli;

yanğın təhlükəsizliyi tədbirlərinə əməl etməli;

balıq və digər su bioresurslarının ovu zamanı müvafiq qaydalarla qadağan edilmiş alət və vasitələrdən istifadə etməməlidir.[3]

1.6. Su obyektlərinin istifadəyə verilməsi qaydaları, sudan və su obyektlərindən istifadə edənlərin hüquq və vəzifələri Su Məcəlləsinin müvafiq maddələri ilə müəyyənləşdirilir.

1.7. Su obyektləri fiziki və hüquqi şəxslərə kütləvi istirahət və idman tədbirləri üçün istifadəyə verildikdə ətraf mühiti mühafizə edən və dövlət sanitariya nəzarətini

həyata keçirən , balıq və digər su bioresurslarını mühafizə edən, gəmi hərəkətini tənzimləyən orqanların tələblərinə, habelə suda insanların həyatının qorunması, suların səmərəli istifadəsi və mühafizəsi qaydalarına riayət edilməlidir. [4]

1.8. Su obyektlərində yerləşdirilən istirahət və idman zona və ocaqları seçilərkən aşağıdakı əsas tələblər irəli sürülür:

su obyekti sahəsinin və suyun keyfiyyətinin dövlət standartlarına uyğunluğu;

su obyektinə rahat və təhlükəsiz çatmaq üçün qurğuların mövcudluğu və yaxud yenidən qurulmasının mümkünlüyü;

istirahət və idman zona və ocaqları yerləşən sahələrə çıxan avtomobil yollarının mövcudluğu;

istirahət və idman zona və ocaqlarının liman və liman qurğularından, şlüzlardan, su elektrik stansiyalarından, çirklənmiş tullantı sularının su obyektlərinə axıdılma məntəqələrindən, mal-qara fermaları və naxırlardan uzaqlığı.

2. SU OBYEKTLƏRİNDƏN İSTİRAHƏT ÜÇÜN İSTİFADƏ QAYDALARI

2.1. Azərbaycan Respublikası əhalisinin rekreasiya tələblərini təmin etmək məqsədilə təbii və süni yolla yer üzərinə çıxarılmış şirin, mineral və termal su qaynaqlarının yerləşdiyi ərazilərdə, həmçinin su axınları, su tutarları və Xəzər dənizinin sahilboyu zolaqları altında olan torpaqlarda istirahət ocaqları (istirahət evləri, kempinqlər, turist müəssisələri, uşaq sağlamlıq düşərgələri və s.) fəaliyyət göstərə bilər. Bunların əraziləri aşağıdakı zonalara bölünür:

təbii rekreasiya ehtiyatlarının, onların istifadəs i üçün tikilmiş qurğuların, istirahət, turist və mədəniyyət müəssisələrinin, həmçinin dincələnlərə xidmət göstərən tamaşa, ictimai-iaşə, ticarət və məişət xidməti müəssisələrinin yerləşdiyi istirahət zonası;

adı çəkilən müəssisələrdə çalışan və yerli əhalinin yaşadığı yaşayış evlərinin və ictimai binaların yerləşdiyi zona;

mərkəzləşdirilmiş təsərrüfat və texniki xidmətlərinin yerləşdiyi zona.

2.2. İstirahət ocaqlarının yaradılması və fəaliyyəti qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

2.3. İstirahət ocaqlarının tutumu rekreasiya ehtiyatlarının həcminə, çimərliklərin və tikinti üçün yararlı ərazilərin sahəsinə əsaslanaraq müəyyən edilir.

2.4. Təbii və süni su qaynaqlarından istifadə “Yerin təki haqqında” Qanunla və bu sahədə mövcud olan digər normativ-hüquqi aktlarla tənzimlənir.

Su qaynaqlarının istifadəsinə olan tələblər aşağıdakılardan ibarətdir:

2.4.1. İstismar olunan süni qaynaqlarda (buruq quyularında) istifadəçilər tərəfindən ayda bir dəfədən az olmamaq şərtilə suyun debeti və səviyyəsinin dinamikası, hidrokimyəvi tərkibinə aid müşahidələr, həmçinin şirin suların keyfiyyətinin Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi* uyğunluğuna nəzarət edən daimi laboratoriya müşahidələri aparılmalıdır. [5]

2.4.2. Fontan vuran buruq quyularının ağzı su kranları, tənzimləyici və digər qurğularla, həmçinin manometrik təzyiqi ölçən cihazlarla təchiz edilməlidir.

2.4.3. Yeraltı suların tükənməsinin, məişət-təsərrüfat tullantı suları ilə çirklənməsinin qarşısının alınması istifadəçilər tərəfindən təmin edilməli, bu məqsədlə onların müəyyən edilmiş istismar rejiminə riayət edilməli, suburaxıcının (buruq quyusunun, bulağın) ətrafında su mühafizə zonası təyin edilməlidir.

2.4.4. İstismara yaramayan və istismar olunmayan buruq quyuları tamponajlanmalı (sement və yaxud gil ilə doldurulmalı), yeraltı su horizontlarının izolyasiyası bərpa edilməlidir.

2.4.5. Hidromineral ehtiyatların (təbii və süni su qaynaqlarının) düzgün istismarı və mühafizəsini təmin etmək, onların rejiminə müntəzəm nəzarət etmək məqsədilə istirahət ocaqlarında hidrogeoloji rejim-istismar stansiyaları, xidmətləri və yaxud sahələri yaradılmalı və onlar aşağıdakı vəzifələri yerinə yetirməlidir:

istirahət ocaqlarının ərazisində yerləşən şirin, mineral və termal su qaynaqlarının, su tutarlarının, həmçinin bitişik su axınlarının və Xəzər dənizi sularının rejiminə nəzarət etmək məqsədilə daimi hidrometeoroloji, hidrogeoloji və hidrokimyəvi müşahidələrin aparılması;

istismar edilən su qaynaqlarının çıxış yerlərində və onların istifadəsi məntəqələrində müntəzəm sanitar-kimyəvi və bakterioloji müşahidələrin aparılması;

Faydalı Qazıntılar üzrə Dövlət Ehtiyatlar Komissiyasının təsdiq etdiyi ehtiyatlar və istismar rejimi daxilində su mədənlərinin düzgün istismarının təşkili və təyin edilmiş istifadə rejiminin gözlənməsinə nəzarət;

hidromineral ehtiyatların istismarında işlədilən kaptaj və digər qurğuların texniki

vəziyyətinin daimi tələb olunan səviyyədə saxlanılması;

istirahət ocaqlarının xüsusi mühafizə dairəsinin müəyyən etdiyi təbii kurort amillərinin rejimi və onların mühafizəsi tədbirlərinin yerinə yetirilməsinə nəzarət;

xüsusi mühafizə dairəsində müxtəlif təşkilatlar tərəfindən aparılan və hidromineral ehtiyatların öyrənilməsi və istifadəsinə yönəlmiş hidrogeoloji, balneotexniki və digər işlər yerinə yetirilməsinə və əldə edilmiş nəticələrin qəbul edilməsinə nəzarət;

hidromineral ehtiyatların istismarı zamanı onların illik və çoxillik rejiminin tədqiqi.

2.5. Su axınları, su tutarları və Xəzər dənizi suları aşağıdakı istirahət məqsədləri üçün istifadə edilir:

çimərliklərin təşkili;

qayıq və gəmi səfərlərinin təşkili;

balıq və digər su bioresurslarının həvəskar ovu. [6]

2.6. Çimərliklərin təşkili, saxlanılması və istifadəsinə dair tələblər aşağıdakılardan ibarətdir:

2.6.1. kütləvi istifadə üçün ayrılmış (seçilmiş) çimərliklərdə:

sahilboyu zolağın altında olan və ona bitişik torpaq sahələrinin vəziyyəti sanitar-epidemioloji tələblərə uyğun olmalı, çirklənməyə və bataqlıqlaşmaya məruz qalmamalıdır;

su obyektlərinin dibinin dərinliyi sahildən uzaqlaşdıqca tədricən enərək 1,75 m-dən artıq olmamalı, burada çimənlər üçün təhlükə yaradan çıxıntı və çuxurlar, sualtı daş və qayalar, suya batmış qol-budaqlı ağaclar, cəng və lehmələr və digər yad cisimlər olmamalıdır;

uşaqların çimməyi üçün ayrılmış sektorlarda su obyektlərinin dibi az meylli, dərinliyi əsasən 0,4–0,5 m olmaqla 0,70 m-dən artıq olmamalıdır;

su obyektlərinin dibi alçaq temperaturlu qrunt suları qaynaqlarından azad olmalı, su axınlarının sürəti 0,5 m/san-dən artıq olmamalıdır.

2.6.2. Çimərliyin ümumi sahəsi hesablanarkən hər adambaşına dənizdə 5 kv.m-dən, su axınları və su tutarlarında isə 8 kv.m-dən az olmayaraq sahənin ayrılması nəzərə alınmalıdır. Uşaq çimərliklərində hər uşağa 4 kv.m-dən az olmayaraq sahə ayrılmalıdır.

2.6.3. Çimmə zonasının sərhədləri hər tərəfdən yaxşı seçilən və bir-birindən 50 m-dən artıq olmayan məsafədə yerləşdirilmiş siqnal üzgəclər və yaxud stasionar nişanlarla işarələnməlidir.

2.6.4. Çimərlikdə hündürlüyü 8–10 m olan və yaşıl rənglə rənglənmiş dirək quraşdırılmalı və suda bədbəxt hadisə baş verdikdə onun başına 1 m diametrli qırmızı rəngli siqnal hava balonu qaldırılmalıdır.

2.6.5. Çimərliyin sahilboyu zolağı altında olan torpaq sahəsi yaxşı planlaşdırılmalı, hasarlanmalı və yaxud onun sərhədləri müvafiq nişanlarla işarələnməlidir. Potensial təhlükəli yerlərdə çimməyi qadağan edən işarələr yerləşdirilməlidir.

2.6.6. Çimmə zonasının dibi su obyektlərinin istifadəçiləri tərəfindən ayda bir dəfədən az olmamaq şərtilə vaxtaşırı təmizlənməli, lazım olduqda dalğıclar vasitəsilə yoxlanılmalıdır.

2.6.7. Çimərliyin sahilboyu zolağı altında olan torpaq sahəsi aşağıdakı fəaliyyət zonalarına ayrılmalıdır:

istirahət zonası (hava və günəş vannalarının qəbul edilməsi üçün meydançalar, kölgəlik talvarları, çətirlər və s.) – 40–60 faiz;

idman zonası (oyun meydançaları, qayıq dayanacaqları, suya tullanmaq üçün güllə və s.) – 10 faiz;

xidmət zonası (qarderob, kirayə məntəqəsi, soyunub-geyinmə kabinaları, duş kabinaları, ayaq yolları, köşklər, ictimai-iaşə müəssisələri və s.) – 5–8 faiz;

yaşıllıqlar – 10–40 faiz;

uşaq sektoru – 8 yaşına qədər olan uşaqlar üçün oyun qurğuları (qum qabları, yelləncəklər və s.) – 5–7 faiz;

piyadalar üçün cığır və yollar – 3–5 faiz.

2.6.8. Çimərlik Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin* tələblərinə cavab verən içməli su ilə təmin edilməlidir.[7]

2.6.9. Soyunub-geyinmə və duş kabinalarının, içməli su fəvvarələrinin, ayaq yollarının və zibil qutularının sayı mövcud tikinti norma və qaydalarına uyğun olmalıdır.

2.6.10. Çimərlik radiolaşdırılmalı və telefonlaşdırılmalı, təcili tibbi yardım və hidrometeoroloji xidmət məntəqələri ilə təmin edilməli, mühafizə olunmalıdır.

2.6.11. Çimərliklərdə müşahidə qülləsi olan xilasetmə stansiyası (məntəqəsi) fəaliyyət göstərməli və orada peşəkar xilas edənlərin daimi növbətçiliyi təşkil edilməlidir.

2.6.12. Çimərlikdə yaxşı görünən yerlərdə aşağıdakıları əks etdirən məlumat lövhələri

quraşdırılmalıdır:

hazırkı qaydalardan çıxarışlar;

çimərliyin fəaliyyət vaxtı;

suda bədbəxt hadisələrin qarşısının alınmasına dair məlumatlar;

çimmə və suda hərəkət tərzi qaydaları;

suyun və havanın hərəkəti barədə məlumat;

çimərliyin quru və su hissələrinin sxematik təsviri;

yaxınlıqdakı xilasetmə stansiyası, polis şöbəsi və təcili tibbi yardım məntəqəsinin telefon nömrələrinin siyahısı.

2.6.13. On üç yaşına çatmamış uşaqlara yalnız valideynlərin və yaxud yaşlı adamların müşayiəti ilə çimərlikdən istifadə hüququ verilir.

2.6.14. Çimərliklərdə qadağan edilir:

çimmək üçün ayrılmamış yerlərdə çimmək;

çimmə zonasının işarələnmiş sərhədlərindən kənarda çimmək;

su axınlarında sahildən 20 m-dən artıq məsafəyə üzmək (uzaqlaşmaq);

müxtəlif növ gəmi, qayıq, sal, barja, körpü və debarkaderlərə, digər texniki qurğulara üzüb yanaşmaq;

texniki qurğuların, xəbərdarlıq nişanlarının, üzgəc və bakenlərin üstünə dırmaşmaq;

körpü, sal, bərə, kater, qayıq və digər qurğu və vasitələrdən suya tullanmaq;

xüsusi təyinatlı vasitələrə (hava ilə doldurulan jilet və döşəklər, xilas dairələri və döşlükləri) aid edilməyən üzən cisimlərdən istifadə etmək;

gəmiçiliyə yararlı su axarları və su tutarlarını üzüb keçmək;

spirtli içkilər gətirib içmək, sərxoş halda çimərlikdə gəzmək və çimmək;

suda kobud hərəkətlərə yol vermək;

sahil sahəsini və suyun dibini müxtəlif cisimlərlə (şüşə və konserv bankaları, plastik kütlə və *qida* tullantıları və s.) zibilləmək;[8]

çimmə zonasında balıq və digər su bioresurslarını ovlamaq; [9]

gecələmək, həmçinin fırtınanın yaxınlaşması, küləyin 5 bala qədər, dalğalanmanın isə 3 bala qədər artması xəbərdarlığından sonra çimərlikdə qalmaq.

2.6.15. Çimərliklərin ərazisinə su nəqliyyat vasitələrinin: qayıqların, kiçik gəmilərin və s. (xilasedici üzgü vasitələri istisna olmaqla) daxil olması qadağandır.

2.7. Qayıq və gəmi səfərlərinin keçirilməsinə dair tələblər aşağıdakılardan ibarətdir:

2.7.1. Qayıq və gəmi səfərlərinin keçirilməsi məqsədilə müvafiq təyinatlı körpü və debarkaderlərdən istifadə edilməlidir.

2.7.2. Körpü və debarkaderlərin qurulması, saxlanılması və istifadə edilməsi qaydaları bu sahədə mövcud olan normativ-hüquqi aktlarla tənzimlənir.

2.7.3. Avarlı və motorlu qayıq, kater, yelkənli kiçik gəmilərin istirahət edənlərin istifadəsinə verilməsi qaranlıq düşəndən bir saat qabaq dayandırılmalı, suda üzən qayıq və gəmilər sahilə qaytarılmalıdır.

2.7.4. Qayıqların:

yeddi yaşı tamam olmamış uşaqlara;

valideynlərin müşayiət etmədiyi 16 yaşına çatmamış yeniyetmələrə;

sərxoş halda olan şəxslərə;

dalğalanmanın 3 baldan, küləyin gücünün 5 baldan artıq olduğu hallarda kirayəyə verilməsi qadağandır.

2.7.5. Gəmini idarə edən şəxsin sürücü vəsiqəsi, ona əlavə olunan üzgü talonu və gəmi bileti olmadıqda, motorlu və yelkənli kiçik gəmilərlə səfərə çıxmaq qadağandır.

2.7.6. Motorlu kiçik gəmilər hər il texniki müayinədən keçməli və sahibinə onların üzməyə yararlığı barədə texniki akt verilməlidir.

2.7.7. Kiçik gəmilərin istismarına və gəmi səfərlərinin təhlükəsizliyinə cavabdehliyi gəmilərin səfərə çıxmasına icazə verən təşkilat və şəxslər, həmçinin gəmilərdəki məsul şəxslər daşıyırlar. Gəminin hər bir səfərə çıxıb dala qayıtması barədə məlumat gəmi duracaqlarındakı xüsusi jurnalda qeyd edilməlidir.

2.7.8. Səfər vaxtı avarlı qayıqlar yelkənli və motorlu gəmilərə və digər nəqliyyat gəmilərinə yol verməli, qabaqcadan kənara çəkilməlidirlər.

2.7.9. Kiçik gəmilərdən istifadə olunduqda aşağıdakılar qadağan edilir:

duman və digər əlverişsiz meteoroloji şəraitdə hərəkət etmək;

küləyin gücü 5 baldan, dalğalanmanın isə 3 baldan yüksək olduğu hallarda üzmək;

Bakı buxtasının kanal və farvaterləri ilə, həmçinin üzmək üçün qadağan olunan

rayonlarda hərəkət etmək;

nasaz vəziyyətdə, həmçinin gəmini yanaşdırıb bağlamaq üçün kəndirin, suyun boşaldılması üçün təknənin və xilasetmə ləvazimatlarının olmadığı halda səfərə çıxmaq;

1 km-dən artıq məsafəyə sahildən uzaqlaşmaq;

özühərəkətedən və yedəkdə aparılan texniki və nəqliyyat gəmilərinə yaxınlaşmaq, onların yolunu kəsmək və yaxud onlara paralel üzmək;

onlar üçün müəyyən edilmiş sərnişinlərin sayını və yükgötürmə həddini aşmaq;

gəzinti qayıqlarında yelkən quraşdırmaq;

çimərliklərin akvatoriyalarına girmək, gəmiçilik şəraitini tənzimləyən üzən nişanlara yaxınlaşmaq və onlara yan almaq;

sərnişin körpüləri, debarkaderlər, yanalma divarcıqları, pirs, şlüz və bərə körpüləri yanında hərəkət etmək, onlara yan almaq, yanlarından yüksək sürətlə üzüb keçmək, nəqliyyat körpülərinin altında və yanında dayanmaq;

yük və sərnişin daşımaları ilə məşğul olmaq.

2.7.10. Kiçik gəmilərdə səfərə çıxmış şəxslərə aşağıdakılar qadağan edilir:

motorlu qayıqlardan balıq ovunda istifadə etmək;

qayıq və gəmilərdən suya tullanmaq və çimmək, həmçinin gəmiləri yırğalandırmaq;

bir gəmidən başqasına keçmək;

qayıq və gəmilərin bortlarında əyləşmək;

sərxoş vəziyyətdə kiçik gəmilərdən istifadə etmək və onları idarə etmək.

2.7.11. Yalnız kiçik gəmilərdə marşrut kitabçası, yelkənli gəmilərdə isə kreyser kitabçası olduğu halda bu gəmilərə Kür çayı boyu turist səfərlərinə çıxmağa icazə verilir.

Marşrut və kreyser kitabçaları yalnız gəmini idarə edən şəxsə həvəskar-gəmiçi şəhadətnaməsi və gəminin sazlığı barədə texniki akt təqdim edildikdə turist və gəmiçilik klubları və seksiyaları tərəfindən verilir.

2.7.12. Kiçik gəmilərin daimi dayanacağı məqsədilə yerli icra hakimiyyət orqanları (balıq mühafizə orqanları ilə razılaşdırmaq şərtilə) tərəfindən Xəzər dənizi sahili adalarında, respublikanın su axınları və su tutarlarında xüsusi təyinatlı körpülər və yaxud onların quraşdırılması üçün sahələr ayrılır.

Qum adası, Çilov, Xara-Zirə, Yaşma, Pirallahı adalarında, Neft Daşları və dəniz neftçıxarma sahələri akvatoriyalarında, həmçinin Kürağzı qadağan zonasında kiçik gəmi dayanacaqlarının təşkili qadağandır.

2.8. İstirahət məqsədilə balıq və digər su bioresurslarının həvəskar ovu “Balıqçılıq haqqında” Qanunla və bu sahədə mövcud olan normativ-hüquqi aktlarla tənzimlənərək balıq mühafizə orqanları tərəfindən müəyyən edilmiş su obyektlərində və onların ayrı-ayrı hissələrində aparılır. [10]

Ayrıca istifadədə, bələdiyyə və xüsusi mülkiyyətdə olan su obyektlərində balıq və digər su bioresurslarının həvəskar ovu həmin su obyektlərinin istifadəçiləri və mülkiyyətçilərinin razılığı ilə həyata keçirilir.

3. SU OBYEKTLƏRİNDƏN İDMAN ÜÇÜN İSTİFADƏ QAYDALARI

3.1. Su obyektlərindən olan su axınları, su tutarları və Xəzər dənizi suları idman üçün aşağıdakı məqsədlərlə istifadə edilir:

su-idman qurğularının yaradılması, saxlanılması və istifadəsi;

su-idman yarışlarının keçirilməsi;

balıq və digər su bioresurslarının idman ovu yarışlarının keçirilməsi.

3.2. Su-idman qurğuları (yaxt-klublar, su-idman stansiyaları, bazaları və s.) yerli icra hakimiyyəti orqanları, təbiət mühafizə orqanları və Fövqəladə Hallar Nazirliyinin razılığı əsasında yaradılır. Bunların qurulması, saxlanılması və istifadə edilməsi qaydaları bu sahədə mövcud olan normativ-hüquqi aktlarla tənzimlənir.

3.3. Tabeçiliyindən asılı olmayaraq, su-idman növləri üzrə təlim və məşq proseslərini həyat keçirən bütün idman təşkilatlarında mövcud qaydaların icrası üçün məsul şəxs həmin təşkilatın rəhbəridir və onun daşıdığı məsuliyyətin həddi qanunvericiliklə müəyyən edilir.

3.4. Su-idman qurğularının istifadəsinə dair tələblər aşağıdakılardan ibarətdir:

3.4.1. Su-idman qurğularının körpülər i üzgü vasitələrinin yanalması və dayanacağı tələblərinə cavab verməlidir.

3.4.2. Hər bir su-idman qurğusunda təcili tibbi yardım məntəqəsi yerləşdirilməlidir.

3.4.3. Hər bir su-idman qurğusu yanında xilasetmə məntəqəsi yaradılmalı və orada peşəkar xilasedənlərin daimi növbətçiliyi təşkil edilməlidir. Xilasetmə məntəqəsi Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırılmış siyahıya görə xilas üzgü vasitələri,

avadanlıq və inventarla təchiz edilməlidir.[11]

3.4.4. Su-idman körpüsündə bir-birindən 25 m-dən artıq olmayan məsafədə yerləşdirilmiş lövhələrdə üzərində "suda boğulana at" yazısı olan xilas dairələri asılmalıdır.

3.4.5. Su-idman körpüsündə hündürlüyü 8–10 m olan və yaşıl rənglə rənglənmiş dirək quraşdırılmalı və suda bədbəxt hadisə baş verdikdə yaxında yerləşən xilasetmə stansiyasına xəbərdarlıq siqnalı vermək üçün onun başına 1 m diametrli qırmızı rəngli hava balonu qaldırılmalıdır.

3.4.6. Su-idman qurğularının yaxşı görünən yerlərində aşağıdakı məlumat lövhələri qurulmalıdır:

hazırkı qaydalardan çıxarış;

daxili intizam qaydaları və yanğına qarşı tədbirlər cədvəli;

suyun və havanın hərarəti, küləyin gücü və səmti;

yaxındakı xilasetmə stansiyası, polis şöbəsi, yanğınsöndürmə komandası və müalicə müəssisəsinin telefon nömrələrinin siyahısı;

su-idman qurğusu akvatoriyasının sərhədlərini, üzgü vasitələrinin məşqlər zamanı hərəkət istiqamətlərini, üzmək üçün qadağan edilən rayonları əks etdirən sxem.

3.4.7. Su-idman qurğularında təlim-məşq keçmək və yarışlarda iştirak etmək üçün yalnız tibbi müayinədən keçmiş və su-idman növləri ilə məşğul olmağa buraxılmış şəxslərə icazə verilir.

Uşaq və yeniyetmə idman məktəblərində məşğul olanlar istisna edilməklə 16 yaşına qədər şəxslərə idman gəmilərində məşq etmək qadağandır.

3.4.8. İdman gəmilərində məşğul olan şəxslər üzməyi bacarmalıdırlar, əks təqdirdə, onlar məşqlərə buraxılmamalı və üzgüçülük seksiyalarında təlim almalıdırlar.

3.4.9. Məşqçi və təlimatçılar xilasetmə bacarığına dair sınaq imtahanından keçməlidirlər.

3.5. Su-idman yarışlarının və təlim-məşq toplanışlarının təşkili və keçirilməsinə dair tələblər aşağıdakılardan ibarətdir:

3.5.1. Təlim-məşqə və yarışlara yalnız müvafiq qaydada qeydə alınmış, texniki müayinədən keçmiş və bu barədə texniki aktı, həmçinin gəmi vəsiqəsi və bort nömrəsi olan motorlu, yelkənli və avarlı gəmilər buraxılır.

3.5.2. Bütün gəmilərin hər iki bortunda nömrəli nişan və gəminin adı (əgər varsa), içərisinin arxa tərəfində isə yaxşı görülən yerdə gəmi səfərinə buraxılanların sayı əks olunmalıdır. Əlavə olaraq yelkənli gəmilərin yelkənlərinin hər iki üzündə gəminin sinfini göstərən fərqlənmə nişanları əks edilməlidir. Bu zaman hərf və rəqəmlərin hündürlüyü 150 mm olmalıdır.

3.5.3. Motorlu və yelkənli gəmini idarə edən şəxsin sürücü vəsiqəsi olmalıdır.

3.5.4. Su-idman qurğularının rəhbərləri idman yarışları və ya təlim-məşq toplanışının təşkili zamanı aşağıdakıları həyata keçirməlidirlər:

idman yarışları və ya təlim-məşq toplantısı müddətində təhlükəsizliyin təşkili üzrə tədbirlər planı hazırlamalı;

yerli xilasetmə xidmətlərini tədbirin keçirilməsi haqqında xəbərdar etməli;

tədbirin keçirilməsinə cavabdeh olan şəxslərə müvafiq təlimat verməli;

təlim-məşq və yarış müddətində həkim nəzarətini təşkil etməlidirlər.

3.5.5. Su-idman qurğularının rəhbərləri və yaxud təlim-məşq toplanışı, yarışların keçirilməsi üzrə məsul şəxslər tədbir iştirakçılarına təhlükəsizliyin təmini, zədəalma üzrə profilaktika, ilk yardım, yerli şərait, su hövzəsinin xüsusiyyətləri, avarçəkmə marşrutları haqqında və digər zəruri məlumat və təlimat verməlidirlər.

Müvafiq təlimatı keçməyən şəxslərin tədbirə buraxılması qəti qadağandır.

3.5.6. İdman yarışları və ya təlim-məşq toplanışları keçirildiyi müddət ərzində iştirakçılar zədə aldıqda idman qurğusunun rəhbəri, həkim və tədbiri keçirən təşkilatın nümayəndəsindən ibarət komissiya hadisə haqqında akt tərtib edir. Alınmış zədə ağır olarsa, 24 saat müddətində akt Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinə, surəti isə *həmin Nazirliyin Bakı Şəhər Gənclər və İdman İdarəsinə və regional idarələrinə* təqdim edilməlidir.[12]

3.5.7. Avarçəkmə yarışlarının təhlükəsizliyi xüsusi ayrılmış və motorlu qayıqlarla təchiz edilmiş xilasetmə komandası, həmçinin yerli polis orqanı nümayəndələri tərəfindən təmin olunur.

3.5.8. Akademik avarçəkmə qayıqlarında və motorlu qayıqlarda məşqlər zamanı xilasetmə işlərinin aparılması, ilk növbədə, bu məşqlərə cəlb edilən məşqçilərin üzərinə düşür. Buna görə də onlar bu idman növlərinin özünəməxsusluğunu bilməli, eyni zamanda profilaktik tədbirlər görməlidirlər.

3.5.9. İdmançılar qabaqcadan su hövzəsində olan süni və təbii maneələr, qadağan

zonaları, həmçinin sahil zonasında mövcud qurğular haqqında təlimatlandırılmalıdırlar.

3.5.10. Məşqlərə başlamazdan əvvəl məşqçilər bütün idman ləvazimatı, qayıq və avarların işə yararlı olmalarını şəxsən yoxlamalıdırlar.

3.5.11. Məşqlərə başlamazdan əvvəl məşqçilər marşrut haqqında jurnalda qeydlər aparmalıdırlar. İdmançıların məşqçilərsiz suya daxil olmaları qəti qadağandır.

3.5.12. Gənc idmançılar avarçəkmə məşqləri zamanı qayıqların suda çevrildiyi hallarda davranış qaydaları haqqında əvvəlcədən təlimat almalıdırlar. Bu zaman qayığın müəyyən hissəsindən tutub, sahilə doğru üzməlidirlər.

Küləkli havada qayıq çevrildiyi zaman, məşqçi çevrilmiş qayığa küləktutmayan tərəfdən yanaşmalıdır. Külək sahil tərəfə əsdikdə isə çevrilmiş qayığa küləkdəyən tərəfdən yanaşmaq tələb olunur.

Dalğalar hündür olduqda çevrilmiş qayığa yan almış xilasetmə qayığının burnu küləyin istiqamətinə qarşı səmtləşdirilməlidir. Məşqçi və xilasetmə qrupunun üzvləri çevrilmiş qayığın yanında olan şəxs tərəfə xilasetmə dairəsini və ya digər xilasetmə vasitəsini atmalıdır. Sonra, çevrilmiş qayıqla suda olan şəxsi yedəyə götürərək öz qayığına arxa tərəfindən qəbul etməlidir. Soyuq hava zamanı idmançı dəsmal ilə qurulanmalı, əgər quru paltar yoxdursa, adyala bürünüb bazaya çatdırılmalıdır.

3.5.13. Məşqçilər ilk tibbi yardım üsullarının tətbiqini bacarmalıdırlar (ürəyin masajı, süni tənəffüs vermə və s.).

3.5.14. Növbəti tibbi müayinə keçməmiş idmançılar məşqçilər tərəfindən təlim-məşq prosesinə buraxılmamalıdırlar.

Əvvəlki məşq və yarışlarda zədə almış idmançılar sonradan həkimin müvafiq razılığı olmadan məşqlərə buraxılmamalıdır.

3.5.15. Bədbəxt hadisələrin qarşısını almaq üçün istifadə olunan qayıqlar onları maneəsiz tərk etməyə imkan yaradan konstruksiya və təchizata malik olmalıdırlar.

3.5.16. Bir qayıq digərini keçmək istədiyi zaman digər qayıq ona mane olmamalıdır. Qayıqların ötüb-keçməsi yarış məsafəsinin yan tərəfi ilə həyata keçirilməlidir.

3.5.17. Yarış və məşqlərin keçirilməsinə təhlükə yaradan (güclü külək , çovğun, dalğalanma, qaranlıq, marşrutda kənar əşya və gəmi) maneə əmələ gələrsə, yarış və məşqlər dayandırılmalıdır.

3.5.18. Təlim-məşq və yarışlar zamanı qəti qadağandır:

gəminin sinfi ilə müəyyən edilən saydan artıq şəxsləri gəmidə yerləşdirmək;

sərxoş halda gəmiyə minmək, təlim-məşq və yarışlarda iştirak etmək;

özüyeriyən gəmilərin yolunu idman gəmiləri vasitəsi ilə kəsmək;

qadağan edilmiş rayonlara üzgü vasitələri ilə daxil olmaq;

idman gəmilərindən çimmək üçün istifadə etmək;

motorlu idman gəmilərindən balıq və digər su bioresurslarının ovunda istifadə etmək; [13]

sürücü vəsiqəsi olmadan motorlu və yelkənli gəmiləri idarə etmək.

3.6. Balıq və digər su bioresurslarının idman ovu yarışlarının təşkili və keçirilməsində balıq və digər su bioresurslarının ovu qaydalarına (mövcud əsasnamənin 2.8-ci bəndi) riayət edilməlidir.

3.7. Su obyektlərindən olan buzlaqlar və qar örtükləri müəyyən edilmiş dağadırmaşma və təhlükəsizlik qaydalarına əməl olunmaq şərti ilə alpinizm və idman turizmi üçün istifadə edilir. Bu zaman aşağıdakılara riayət edilməlidir.

3.7.1. Buzlaqlara və qar örtüklərinə qalxmaq və onları aşmaq həvəsində olan şəxslər qabaqcadan alpinizm və idman turizm seksiyalarında təlim-məşq keçməli və müvafiq idman dərəcələri almalıdırlar. 16 yaşından cavan və həkimlərin icazəsi olmadığı şəxslərə təlim-məşqlərdə iştirak etmək qadağandır.

3.7.2. Yeni başlayan alpinistlərin hazırlanması vahid proqram əsasında aparılmalı və onların nəticəsində idmançılar təlim-məşq səfərlərinə çıxmaq və I dərəcə çətinlikli zirvələrə dırmaşmaq imkanı verən alpinist texnikasının aşağıdakı əsaslarına yiyələnməlidirlər:

alpinist kəndiri, təhlükəsizlik kəməri və karabinlə rəftar, düyünlərin bağlanması, təhlükəsizlik üsullarının tətbiqi;

fərdi qaydada qayalarla hərəkət;

dəstə ilə qayalarla hərəkət;

sıx ot bitmiş və daş töküntülü yamaclarla hərəkət;

dağ çaylarından keçid;

fəlakət zədəlilərinin (xəsarət almış şəxslərin) daşınması;

səfər zamanı düşərgənin salınması;

ilkin tibbi yardımın göstərilməsi qaydaları.

3.7.3. Təlim-məşqlərin sonrakı dörd pilləsində III, II və I dərəcəli idmançılar hazırlanır. Bu zaman idmançılar əldə edilmiş vərdişləri möhkəmləndirir və aşağıdakı alpinist texnikası üsullarına yiyələnirlər:

qar örtüyü və firnlə hərəkət;

buzlaqlarla hərəkət;

yüksək dağlıq səfər və zirvə dırmaşmalarının təşkili;

təhlükəsizlik və özünü bədbəxt hadisədən qoruma üsullarının tətbiqi;

dağ şəraitində radio ilə əlaqə.

3.7.4. Alpinist marşrutları buzlaq və qar örtüklərinin ətəyində quraşdırılmış düşərgələrdən aparılmalı və səfərə çıxan alpinist dəstələrinə yüksək ixtisaslı təlimatçılar rəhbərlik etməlidir.

3.7.5. Alpinist düşərgələrində yüksək səviyyəli idmançı və təlimatçılardan ibarət olan xilasetmə xidməti yaradılmalı və onun rəisi təyin edilməlidir.

3.7.6. Alpinist marşrutları sərbəst və süni dırmaşma hissələrindən ibarət ola bilər.

Sərbəst dırmaşma zamanı qarmaq, paz və digər yardımçı vasitələrdən əlavə alətlər kimi deyil, yalnız təhlükəsizlik məqsədləri üçün istifadə edilir.

Sərbəst dırmaşmanın çətinlik dərəcələri aşağıdakılardır: I–asan; II–orta; III–çətin; IV–çox çətin; V–xüsusi çətin; VI–fövqəlçətin.

Süni dırmaşmanın qiymətləndirilməsində əlavə olaraq 4 çətinlik dərəcəsi tətbiq edilir.

3.7.7. Marşruta çıxmazdan əvvəl aşağıdakı məlumatlar əldə edilməlidir:

marşrutun çətinlik dərəcəsi;

marşrutun qorunma səviyyəsi – açıq yerlərin, güclü küləyə məruz qalan hissələrin və s. mövcud olması;

marşrutun yoruculuq, gərginlik dərəcəsi;

qayalı, qar örtüklü və buzlaqlı relyefin vəziyyəti – parçalanmış və dağılmış qayalıqlar, daş, qar və buz uçqunlarının əmələ gəlmə təhlükəsi və s.;

qar örtüklü yamacların, buzlaq sürüşmələri və divarlarının dikliyi;

taktiki çətinliklər, istiqamətgötürmə çətinlikləri və s.;

müəyyən yerləri keçəndən sonra dala qayıtmağın çətinlik və yaxud mümkünlük dərəcəsi;

iqlim təhlükəsi–hava şəraitinin kəskin dəyişməsi və s.;

marşrutun və onun ən çətin (hakim) hissələrinin, uzunluğu və ümumi hündürlüyü;

marşrutun və onun hakim hissələrinin keçilmə müddəti;

düşərgələrin salınma nöqtələri;

tələb olunan vasitə və ləvazimatın siyahısı;

marşrutdan qayıtmanın ən asan yollarının müəyyənləşdirilməsi.

3.7.8. Alpinist düşərgələrində və marşrutların keçirilməsi müddətində təbiəti mühafizə qaydalarına riayət edilməlidir.

4. SU OBYEKTLƏRİNİN MÜHAFİZƏ QAYDALARI

4.1. İstirahət və idman üçün istifadə edilən su obyektlərinin mühafizəsi hidromineral ehtiyatların fiziki və kimyəvi xüsusiyyətlərinin qorunması, onların çirklənməsi və vaxtsız tükənməsinin qarşısının alınması, su axınları və su tutarlarının, həmçinin Xəzər dənizi sahillərinin və sahilboyu akvatoriyasının çirklənmədən qorunması, su obyektlərindən istifadə üçün münasib sanitar şəraitin yaradılması məqsədlərini güdür.

4.2. İstirahət və idman üçün istifadə edildikdə su obyektlərinin mühafizəsi qaydaları müvafiq normativ-hüquqi aktlarla tənzimlənir.

4.3. İstirahət ocaqları üçün xüsusi mühafizə dairələri təyin edilir və onların daxilində torpağı, suyu və havanı çirkləndirən meşə və yaşıllıqlara zərər vuran işlərin aparılması qadağan edilir.

Bir neçə su mədəni və qaynaqlarından, qonşu çimərliklərdən və digər təbii obyektlərdən bir neçə istirahət ocağı tərəfindən istifadə edildikdə onlar üçün vahid sanitar mühafizə dairəsi təyin edilə bilər.

Xüsusi mühafizə dairələrinin sərhədləri və rejimi Səhiyyə Nazirliyi və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təqdimatı əsasında, yerli icra hakimiyyəti orqanları, yeraltı sular üçün isə əlavə olaraq geoloji nəzarət orqanı ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

4.4. Xüsusi mühafizə dairələri üç su mühafizə zonasına bölünür:

4.4.1. Birinci zona (ciddi rejim zonası) təbii və süni su qaynaqlarının, mineral göllərin, limanların, çimərliklərin yerləşdiyi əraziləri, həmçinin Xəzər dənizinin sahil boyu sularını və çimərliklərə bitişik eni 100 m-dən az olmayan torpaq sahələrini əhatə

edir.

Birinci zonanın ərazisində təbii ehtiyatlardan istirahət üçün istifadəyə bilavasitə yönələn bütün işlərin aparılması, istirahət ocağının fəaliyyəti ilə əlaqəsi olmayan şəxslərin daimi və müvəqqəti yaşaması, həmçinin təbii obyektlərə zərər gətirə bilən digər hərəkətlər qadağan edilir.

Birinci zonanın ərazisində aşağıdakı işləri aparmaq olar:

təbii obyektlərin istismarı ilə əlaqədar olan mədən və torpaq işləri;

xüsusi təyinatlı qurğuların (kaptajlar, kaptajüstü binalar, nasos stansiyaları, boru kəmərləri, su çənləri, suiçmə qalereyaları (şüşəbəndləri), büvetlər, estakadalar) inşası;

sahilbərkitmə, həmçinin sürüşmə və erroziya proseslərinə qarşı tədbirlərin görülməsi;

rabitə vasitələri və park tikililərinin inşası.

4.4.2. İkinci zona (məhdudiyyət zonası) su qaynaqlarının, mineral göllərin, limanların, su qaynaqlarını yaradan yeraltı mineral və şirin suların yer səthinə yaxın olan hərəkət zonalarının yerləşdiyi sahələr istiqamətində axan yerüstü və qrunt sularının mənbələrinin yerləşdiyi əraziləri, mineral suların cəmləşdiyi təbii və süni anbarların yerləşdiyi sahələri, istirahət ocaqlarının yerləşdiyi və onların tikintisi üçün nəzərdə tutulan əraziləri, park, meşə-park və yaşıllıq sahələrini əhatə edir və onların çirklənməsinin, hidromineral ehtiyatların tükənməsinin, kimyəvi tərkibinin dəyişməsinin, ümumiyyətlə təbii ehtiyatların vəziyyətinin pisləşməsinin qarşısını almaq məqsədini güdür.

İkinci zonanın ərazisində aşağıdakı fəaliyyət növləri qadağandır:

istirahət ocaqlarının inkişafı və abadlaşdırılması ilə bilavasitə əlaqəli olmayan obyektlərin və tikililərin inşası, dağ-mədən və digər işlərin aparılması;

hopdurma quyularının, suvarılma və yeraltı filtrasiya meydançalarının, qəbiristanlıqların olması, heyvan cəsədlərinin basdırılması;

mal-qaranın otarılması və sürülməsi;

alaq otu, bitkilərin ziyanvericiləri və xəstəlikləri ilə mübarizə məqsədilə zəhərli kimyəvi preparatların tətbiqi;

yaşıllıqların doğranması (sanitar və qulluq budamaları istisna edilməklə);

təbii ehtiyatların keyfiyyətinin pisləşməsi və miqdarının azalmasına yol verən digər fəaliyyət.

Parklarda, meşə-parklarda, digər yaşıllıqlarda təhlükəli və karantin tədbirlərinin həyata keçirilməsini tələb edən ziyanverici və xəstəliklərin kütləvi yayılmasını dayandırmaq məqsədilə insan üçün zərərli olmayan və ətraf mühitdə tezliklə parçalanan zəhərli kimyəvi preparatlardan *sanitariya-epidemioloji xidmət müəssisəsi* ilə razılaşdıraraq və işlərin xüsusi təşkilat tərəfindən aparılması şərtilə istifadə edilə bilər.[14]

4.4.3. Üçüncü zona (müşahidə zonası onun sərhədləri xüsusi mühafizə dairəsinin sərhədləri ilə üst-üstə düşür) hidromineral ehtiyatların bütün qidalanma və əmələgəlmə sahəsini, istirahət ocağını əhatə edən yaşıllıq sahələrini, həmçinin təsərrüfatda nəzarətsiz istifadə nəticəsində su mədənlərinin hidrogeoloji rejiminə, istirahət ocaqlarının sanitar və landşaft-iqlim şəraitinə mənfi təsir göstərə bilən əraziləri əhatə edir.

Bu zonanın ərazisində təbii obyektlərə və istirahət ocaqlarının sanitar vəziyyətinə mənfi təsir göstərməyən bütün fəaliyyət növlərinə və işlərin aparılmasına icazə verilir.

4.5. İstirahət ocaqlarının xüsusi mühafizə dairəsində yerləşən su boruları və su mənbələrinin sanitar mühafizəsi qüvvədə olan qanunvericilik aktları əsasında həyata keçirilir.

4.6. Hidromineral ehtiyatların istismarı, kaptaj qurğularının tikintisi, mineral və termal suların debiti, səviyyəsi, kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinin müntəzəm müşahidəsi istirahət ocaqlarını idarə edən təşkilatlar, fiziki və hüquqi şəxslər tərəfindən həyata keçirilir.

4.7. Su axınları, su tutarları və Xəzər dənizi sularının çirklənmədən mühafizəsi, onlardan istifadənin gigiyena tələblərinə uyğunluğu və istirahət edənlərin sağlamlığının təminatı ilə müəyyənləşdirilir.

4.8. Su axınları və su tutarlarının istirahət və idman məqsədləri ilə istifadə edilən əraziləri üçün aşağıdakı su mühafizəsi tələbləri nəzərdə tutulur.

4.8.1. Su axınlarındakı suyun tərkibi və xassələri istifadə yerindən bir kilometr (axın boyu) yuxarıda yerləşən nöqtədəki normativlərlə uyğun olmalı, su tutarlarında isə istifadə yerindən hər iki tərəfə bir kilometrlik məsafədəki nöqtələrin normativlərinə müvafiq olmalıdır.

4.8.2. İstirahət və idman üçün istifadə edilən su axınları və su tutarlarındakı suyun tərkibi və xassələrinə olan gigiyenik tələblər bu Əsasnaməyə I nömrəli əlavədə göstərilmiş normativlərə uyğun olmalıdır.

4.8.3. Eyni zərərli təsir göstəricisi olan bir neçə çirkləndirici maddənin su obyektinə

daxil olduğu halda (ətrafda yerləşən su buraxıcılarından axıdılan çirkab qatışıqların miqdarı nəzərə alınmaqla) ayrı-ayrı maddələrin suda olan qatılıqlarının, onların yol verilən qatılıq hədlərinə (YQH) olan nisbətlərinin cəmi vahiddən artıq olmamalıdır;

4.8.4. İstirahət ocaqları və idman obyektlərindən çirklənmiş tullantı sularının su obyektlərinə ötürülməsi şərtləri Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılır və aşağıdakılardan ibarətdir:[15]

tullantı suları yalnız yerli təmizləyici qurğulardan keçdikdən sonra su obyektlərinə ötürülə bilər;

tərkibində neft və neft məhsulları olan tullantı sularının su obyektlərinə ötürülməsi qadağandır;

təmizləyici qurğuların giriş və çıxışında axıdılan tullantı sularının analizi nəticəsində onların təmizlənmə, zərərsizləşdirilmə və dezinfeksiya dərəcəsi müntəzəm olaraq müəyyən edilməlidir;

tullantı sularının su axınlarına ötürülməsi axın boyu yalnız istifadə yerlərinin aşağı sərhədindən kənarda aparıla bilər;

tullantı sularının sututarların a ötürülməsi yalnız istifadə yerlərinin hər iki sərhədindən kənarda (sərhəddən 200 m-dən əskik olmayan məsafədə) aparıla bilər;

tullantı sularının su obyektlərinə ötürüldüyü məntəqələrdə su obyektinin tərkibi və xassələrinə dair müntəzəm analizlər aparılmalıdır.

4.8.5. Su obyektlərində zərərli göstəricilər YQH-ni aşdığı hallarda nəzarətedici orqanlar çirklənmiş tullantı sularının su obyektlərinə ötürülməsini qadağan etmək hüququna malikdirlər.

4.9. Xəzər dənizinin istirahət və idman məqsədlər ilə istifadə edildiyi akvatoriyaları üçün aşağıdakı su mühafizəsi tələbləri irəli sürülür:

4.9.1. İstifadə rayonunun sahil boyu uzunluğu istirahət (idman) obyektinin hazırkı və perspektiv inkişaf zonasının sahəsi ilə müəyyən edilir; əlavə olaraq su obyektinin sahildən açıq dəniz istiqamətində olan eni 2 km-dən əskik olmamalıdır.

4.9.2. Dəniz suyu sahildə sağlamlaşdırıcı müalicə məqsədləri üçün istifadə edildikdə suburaxıcı qurğuların sanitar mühafizə zonası Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi* əsasında təyin edilir; bu zaman zonanın sərhədləri bütün istiqamətlərdə (akvatoriya daxilində) suburaxıcıdan 200 m-dən əskik olmayan məsafədə təyin edilməlidir.[16]

4.9.3. Su mühafizə zonasının sərhədləri sudan istifadə rayonunun sərhədlərindən sahil boyu və açıq dəniz istiqamətində 10 km-dən əskik olmayan məsafədə yerləşdirilir. Təyin edilmiş sərhədlərin hüdudlarında dəniz suyunun bakterioloji və kimyəvi cəhətdən çirkləndirilmə həddi müəyyən edilmiş normativ göstəriciləri aşmamalıdır.

4.9.4. Sudan istifadə rayonunun hüdudlarında hər növ təmizlənmiş və təmizlənməmiş tullantı sularının axıdılması qadağan edilir.

Sudan istifadə rayonunun sahil zolağı ilə Azərbaycan Respublikası ərazi sularının sərhədləri arasında yerləşən akvatoriyada dəniz sularının su nəqliyyatı və dəniz neftçıxarma obyektləri tərəfindən çirkləndirilməsi qadağan edilir.

4.9.5. Müstəsna olaraq bioloji cəhətdən təmizlənmiş və zərərsizləşdirilmiş tullantı sularının sahilboyu dəniz sularına axıdılmasına *dövlət sanitariya nəzarətini*, ətraf mühitin mühafizəsinə dövlət nəzarətini və balıq mühafizə xidmətini həyata keçirən orqanların razılığı ilə və mövcud qaydalara və normativlərə riayət edilməklə icazə verilir.[17]

4.9.6. İstirahət və idman üçün istifadə edilən dəniz su obyektlərindəki suyun tərkib və xassələrinə olan gigiyenik tələblər bu əsasnaməyə 2 nömrəli əlavədə göstərilmiş normativlərə uyğun olmalıdır.

4.9.7. Sahil qəsəbələrindən axıdılan səth sularının təsiri nəticəsində dəniz suyunun tərkibi və xassələrinin pisləşməsinin qarşısını almaq məqsədilə sudan istifadə rayonlarında təbiəti mühafizə orqanı və *sanitariya-epidemioloji xidmət müəssisəsi* ilə razılaşdırılmış su mühafizə tədbirləri, o cümlədən qüvvədə olan Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin* tələb və normativlərinə əsaslanan çimərliklərin və dənizkənarı istirahət ocaqlarının ərazilərində abadlaşdırma işlərinin aparılması səth sularının sudan istifadə rayonunun hüdudlarından kənarlaşdırılması və s. kimi tədbirlər görülməlidir.[18]

4.9.8. Sudan istifadə rayonu ərazisində dənizə axan çayların mənsəblərində suyun tərkibi və xassələri hazırkı əsasnamənin 4.8-ci bəndində göstərilən tələblərə cavab verməlidir.

Bu "Əsasnamə"nin pozulmasına görə vətəndaşlar və məsul şəxslər Azərbaycan

Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Su obyektlərindən istirahət və
idman üçün istifadə qaydaları
haqqında əsasnaməyə
1 NÖMRƏLİ ƏLAVƏ

İstirahət və idman üçün istifadə edilən su axınları və su tutarlarındakı suyun tərkib və xassələrinə olan

GİGİYENİK TƏLƏBLƏR

Su obyektlərinin xüsusiyyətləri və tərkibi	**əhalinin çimməsi, idman və istirahət üçün, eləcə də yaşayış məntəqəsi hüdudlarında yerləşən sututarlar üçün**
1	**2**
Asılı maddələr	Asılı maddələrin miqdarı 0,75 mq/l-dən çox artmamalıdır. Suyun orta səviyyəsində 30 mq/l-dən çox təbii mineral maddələr saxlayan su obyektləri üçün asılı maddələrin 5 faizi həddində artmasına yol verilir. Çökmə sürəti su axınlarında 0,4 mm/san-dən, su tutarlarında isə 0,2 mm/san-dən artıq olan asılı maddələrin su obyektlərinə axıdılması qadağan edilir.
Üzən qatışıqlar (maddələr)	Su obyektlərinin səthində üzən maddələr (nazik bulaşıq pərdə və təbəqələr, neft və yağ izləri və ləkələri, müxtəlif əlavələr və digər qatışıqlar) olmamalıdır.
İylər, dadlar	Suda bilavasitə aşkar edilən yad iylər və dadlar 2 bal səviyyəsini (insan üçün duyma həddi) aşmamalıdır. Tutulan balıqların ətinə sudan yad iy və dad keçməməlidir.
Rəngi	10 sm-lik su sütununda aşkar edilməməlidir.
Hərarəti	Yay aylarında çirklənmiş tullantı sularının axıdılması nəticəsində suyun hərarəti son 10 il ərzində ən isti ayın orta aylıq hərarətindən 3^0C-dən çox artmamalıdır.
Hidrogen göstəricisi (pH)	6,5–8,5-dən kənara çıxmamalıdır.
Mineral tərkibi	“Dadlar” göstəricisi ilə normalaşdırılır.
Həll olunmuş oksigen	İlin istənilən dövründə saat 12-yə qədər götürülmüş nümunədə 4 mq/l-dən az olmamalıdır.
Biokimyəvi oksigen tələbatı (BOT)	Suyun hərarəti 20^0C götürüldükdə 6,0 mq/l-dən çox olmamalıdır.
Kimyəvi oksigen tələbatı (KOT)	30,0 mq/l-dən çox olmamalıdır.
Xəstəlik törədiciləri	Suda xəstəlik törədiciləri olmamalıdır.
Kolifaqların miqdarı	1l-də 100-dən çox olmamalıdır.
Bağırsaq çöplərinə aid laktozamüsbət bakteriyaların miqdarı	1l-də 5000-dən çox olmamalıdır.
Yaşamaq qabiliyyəti olan qurd yumurtaları (aşkarıda tükbaş, toksokar, fasiol), teniidlərin opkosferaları və bəsit patogen bağırsaq çöplərinin həyat qabiliyyəti üst pərdələri (sistalar)	Olmamalıdır
Kimyəvi maddələr	Yol verilən qatılıq hədlərini (YQH) və yol verilən təxmini hədləri (YTH) ötməməlidir.

Su obyektlərindən istirahət və
idman üçün istifadə qaydaları
haqqında əsasnaməyə
2 NÖMRƏLİ ƏLAVƏ

İstirahət və idman üçün istifadə edilən dəniz su obyektlərindəki suyun tərkib və xassələrinə olan

GİGİYENİK TƏLƏBLƏR

Dənizin suyunun tərkib və xassələrinin göstəriciləri	**Dəniz suyunun tərkib və xassələrinə dair ümumi tələblər və normativ göstəricilər**	
	sudan istifadə rayonu	**sanitar mühafizə zonası**
1	**2**	**3**
Üzən qatışıqlar	Su obyektlərinin səthində və 30 sm-lik üst su qatında dəniz suyu üçün qeyri-adi olan üzən maddələr (nazik bulaşıq pərdə və təbəqələr, neft və yağ izləri və ləkələri, müxtəlif əlavələr və digər qatışıqlar) olmamalıdır. Yosunların müntəzəm mövsüm artımı və toplanması hallarında rayonun onlardan təmizlənməsi tədbirləri keçirilməlidir.	Suyun səthində qeyri-adi üzən maddələr və digər qatışıqlar olmamalıdır.
İylər, dadlar	Dəniz suyuna xas olmayan yad iylər 2 bal səviyyəsini (insan üçün duyma həddi) aşmamalı, dəniz qida məhsullarında yad dad olmamalıdır.	Suda kənar iylər və dəniz qida məhsullarında yad dad olmamalıdır.
Şəffaflıq	Snellen şrifti ilə 30 sm-dən əskik olmamalıdır. Yerli hidrofiziki, topoqrafik-hidroloji və digər təbii-klimatik faktorların təsiri altında şəffaflığın azalması hallarında suyun şəffaflıq dərəcəsi məhdudlaşdırılmır.	Məhdudiyyət qoyulmur.
Rəngi	10 sm-lik dəniz suyu sütununda aşkar edilməlidir.	Məhdudiyyət qoyulmur.
Biokimyəvi oksigen tələbatı (BOT)	Suyun hərarəti 20^0C götürüldükdə 3,0 mq/l-dən artıq olmamalıdır.	Məhdudiyyət qoyulmur.
Yoluxucu xəstəliklərin törədiciləri	Suda tapılmamalıdır.	Məhdudiyyət qoyulmur.
Bağırsaq çöpləri qrupuna aid laktozomüsbət bakteriyaların miqdarı	1l-də 1000-dən çox olmamalıdır.	Çirkab suların axıdılması şərtlərinə uyğun olaraq nizamlanır: sərbəst xlorun miqdarı 1,5 mq/l-dən əskik, koli-indeks isə 1000-dən artıq olmamalıdır.
Stafilokokkların miqdarı	1l-də 100-dən artıq olmamalıdır.	Çirkab suların axıdılması şərtlərinə uyğun nizamlanır.

Dənizin suyunun tərkib və xassələrinin göstəriciləri	Dəniz suyunun tərkib və xassələrinə dair ümumi tələblər və normativ göstəricilər	
	sudan istifadə rayonu	sanitar mühafizə zonası
1	2	3
Üzmə hovuzlarının suburaxıcılarında enterokokkların və bağırsaq çöpləri qrupu bakteriyalarının miqdarı	1l-də müvafiq olaraq 50-dən və 100-dən artıq olmamalıdır.	Çirkab suların axıdılması şərtlərinə uyğun nizamlanır.
Zərərli maddələr	Yol verilən qatılıq hədlərini (YQH) və yol verilən təxmini hədləri (YTH) ötməməlidir.	YQH və YTH ötməməlidir.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 10 mart 2004-cü il tarixli 27 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 193**)
2. 7 yanvar 2005-ci il tarixli 5 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 1, maddə 49**)
3. 29 iyun 2005-ci il tarixli 122 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 6, maddə 558**)
4. 8 aprel 2006-cı il tarixli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 4, maddə 370**)
5. 2 may 2006-cı il tarixli 119 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 5, maddə 463**)
6. 13 sentyabr 2006-cı il tarixli 207 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 822**)
7. 21 yanvar 2009-cu il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 32)**
8. 10 may 2012-ci il tarixli **108** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 13 may 2012-ci il, № 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 05, maddə 482**)
9. 19 noyabr 2014-cü il tarixli **368** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1507)**
10. 30 avqust 2018-ci il tarixli **367** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 2 sentyabr 2018-ci il, № 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №8, maddə 1817**)
11. 30 oktyabr 2021-ci il tarixli **332** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 4 noyabr 2021-ci il, № 239, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 10, maddə 1199)**
12. 5 noyabr 2022-ci il tarixli **409** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 11 noyabr 2022-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1346)**
13. 30 dekabr 2023-cü il tarixli **512** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 8 yanvar 2024-cü il, “Xalq” qəzeti, 9 yanvar 2024-cü il, № 2)**
14. 12 yanvar 2024-cü il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 yanvar 2024-cü il, “Azərbaycan” qəzeti, 17 yanvar 2024-cü il, № 9)**

QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 21 yanvar 2009-cu il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 32)** ilə "Su obyektlərindən istirahət və idman

üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 2.4.1-ci, 2.6.8-ci, 4.9.2-ci və 4.9.7-ci bəndlərində ismin müvafiq hallarında **"Agentliyi"** sözü ismin müvafiq hallarında **"Komitəsi"** sözü ilə əvəz edilmişdir.

[2] 5 noyabr 2022-ci il tarixli **409** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 11 noyabr 2022-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 11, maddə 1346)** ilə "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"yə yeni məzmunda 1.3-1-ci bənd əlavə edilmişdir.

[3] 19 noyabr 2014-cü il tarixli **368** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1507)** ilə "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 1.5-ci bəndinin altıncı abzasında "**balıq ovu"** sözləri "**balıq və digər su bioresurslarının ovu**" sözləri ilə əvəz edilmişdir.

[4] 19 noyabr 2014-cü il tarixli **368** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1507)** ilə "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 1.7-ci bəndində "**təbiəti mühafizə edən**" sözləri "**ətraf mühiti mühafizə edən**" sözləri ilə, "**balıq ehtiyatlarını**" sözləri "**balıq və digər su bioresurslarını**" sözləri ilə əvəz edilmişdir.

[5] 10 mart 2004-cü il tarixli 27 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 193**) ilə "**Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə**"nin 2.4.1-ci bəndində "**Azərdövlətstandartla**" sözü "**Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyilə**" sözləri ilə əvəz edilmişdir.

30 avqust 2018-ci il tarixli **367** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 2 sentyabr 2018-ci il, № 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №8, maddə 1817**) ilə "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 2.4.1-ci, 2.6.8-ci, 4.9.2-ci və 4.9.7-ci yarımbəndlərində ismin müvafiq hallarında "**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi**" sözləri ismin müvafiq hallarında "**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi**" sözləri ilə əvəz edilmişdir.

[6] 19 noyabr 2014-cü il tarixli **368** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1507)** ilə "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 2.5-ci bəndin dördüncü abzası yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~həvəskar balıq ovu~~

—

[7] 10 mart 2004-cü il tarixli 27 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 193**) ilə "**Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə**"nin 2.6.8-ci bəndində "**Azərdövlətstandartın**" sözü "**Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin**" sözləri ilə əvəz edilmişdir.

[8] 12 yanvar 2024-cü il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 yanvar 2024-cü il, "Azərbaycan" qəzeti, 17 yanvar 2024-cü il, № 9)** ilə "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 2.6.14-cü yarımbəndinin on ikinci abzasında "**ərzaq**" sözü "**qida**" sözü ilə əvəz edilmişdir.

[9] 19 noyabr 2014-cü il tarixli **368** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1507)** ilə "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 2.6.14-cü yarımbəndin on üçüncü abzasında "**balıq**" sözü "**balıq və digər su bioresurslarını**" sözləri ilə əvəz edilmişdir.

—

[10] 19 noyabr 2014-cü il tarixli **368** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1507)** ilə "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 2.8-ci bəndin birinci və ikinci abzaslarında, 3.6-cı bənddə "**həvəskar balıq ovu**" sözləri "**balıq və digər su bioresurslarının həvəskar ovu**" sözləri ilə, 3.1-ci bəndin üçüncü abzasında və 3.6-cı bənddə "**idman-balıq ovu**" sözləri "**balıq və digər su bioresurslarının idman ovu**" sözləri ilə, 3.6-cı bənddə "**həvəskar balıq ovu**" sözləri "**balıq və digər su bioresurslarının ovu**" sözləri ilə əvəz edilmişdir.

—

[11] 13 sentyabr 2006-cı il tarixli 207 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 822**) ilə "**Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə**"nin 3.2-ci bəndindən və 3.4.3-cü yarımbəndindən "**sularda xilasetmə xidmətinin**" və "**sularda xilasetmə xidməti**" sözləri müvafiq olaraq "**Fövqəladə Hallar Nazirliyinin**" və "**Fövqəladə Hallar Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[12] 2 may 2006-cı il tarixli 119 nömrəli Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 5, maddə 463**) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 oktyabr tarixli 216 nömrəli qərarı ilə təsdiq edilmiş "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 3.5.6-cı bəndində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilmişdir.

30 dekabr 2023-cü il tarixli **512** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 8 yanvar 2024-cü il, "Xalq" qəzeti, 9 yanvar 2024-cü il, № 2)** ilə "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 3.5.6-cı yarımbəndinin ikinci cümləsində "**yerli gənclər və idman idarəsinə**" sözləri "**həmin Nazirliyin Bakı Şəhər Gənclər və İdman İdarəsinə və regional idarələrinə**" sözləri ilə əvəz edilmişdir.

[13] 19 noyabr 2014-cü il tarixli **368** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1507)** ilə "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 3.5.18-ci bəndin yeddinci abzasında **"balıq ovunda"** sözləri **"balıq və digər su bioresurslarının ovunda"** sözləri ilə əvəz edilmişdir.

—

[14] 30 oktyabr 2021-ci il tarixli **332** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 4 noyabr 2021-ci il, № 239, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 10, maddə 1199)** ilə "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 4.4.2-ci yarımbəndin doqquzuncu abzasında və 4.9.7-ci yarımbənddə **"sanitar-epidemioloji xidmət stansiyası"** sözləri **"sanitariya-epidemioloji xidmət müəssisəsi"** sözləri ilə əvəz edilmişdir.

[15] 7 yanvar 2005-ci il tarixli 5 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 1, maddə 49**) ilə "**Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə**"nin 4.8.4-cü yarımbəndində "**Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi**" sözləri "**Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

29 iyun 2005-ci il tarixli 122 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 6, maddə 558**) ilə "**Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə**"nin 4.8.4-cü bəndində "**Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsi**" sözləri "**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi**" sözləri ilə əvəz edilmişdir.

8 aprel 2006-cı il tarixli 100 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 4, maddə 370**) ilə "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 4.8.4-cü bəndində "Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi" sözləri "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilmişdir.

10 may 2012-ci il tarixli **108** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 13 may 2012-ci il, № 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 05, maddə 482**) ilə təsdiq edilmiş "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 4.8.4-cü yarımbəndində "**Cəmiyyəti**" sözündən sonra "**, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi**" sözləri əlavə edilmişdir.

[16] 10 mart 2004-cü il tarixli 27 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 193**) ilə "**Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə**"nin 4.9.2-ci bəndində "**Azərdövlətstandart**" sözü "**Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi**" sözləri ilə əvəz edilmişdir.

[17] 19 noyabr 2014-cü il tarixli **368** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1507)** ilə "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 4.9.5-ci yarımbənddə **"təbiəti və balıq ehtiyatlarını mühafizə edən"** sözləri **"ətraf mühitin mühafizəsinə dövlət nəzarətini və balıq mühafizə xidmətini həyata keçirən"** sözləri ilə əvəz edilmişdir.

30 oktyabr 2021-ci il tarixli **332** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 4 noyabr 2021-ci il, № 239, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 10, maddə 1199)** ilə "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"nin 4.9.5-ci yarımbənddə "**sanitar-epidemioloji xidmətin**" sözləri "**dövlət sanitariya nəzarətini**" sözləri ilə əvəz edilmişdir.

—

[18] 10 mart 2004-cü il tarixli 27 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 193**) ilə "**Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə**"nin 4.9.7-ci bəndində "**Azərdövlətstandartın**" sözü "**Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin**" sözləri ilə əvəz edilmişdir.